**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 8**

**Bakı şəhəri** **22 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Sevda Etibar qızı Rüstəmovanın Salyan Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2025-ci il iyul ayının 29-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Rüstəmova Sevda Etibar qızı Salyan Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il fevral ayının 05-də elan edilmiş müsabiqə üzrə müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2025-ci il iyul ayının 29-da Dövlət Statistika Komitəsi aparatının Həyat keyfiyyətinin statistikası şöbəsi müdirinin müavini-Ev təsərrüfatları büdcələrinin tədqiqatı sektorunun müdiri Nail İmanov, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Elnarə Tağıyeva və müstəqil ekspert E.Süleymanovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Rüstəmova Sevda Etibar qızına müsahibə komissiyasının üzvlərindən N.İmanov 15 bal, E.Tağıyeva və E.Süleymanov 16 bal vermiş və nəticədə iştirakçı 15.7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 31.07.2025-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Rüstəmova Sevda Etibar qızının 2025-ci il 31 iyul tarixli apellyasiya şikayəti təmin edilməsin və Salyan Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2025-ci il iyul ayının 29-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: